**İtaliya saytları “Ansaldo Energia” ilə Azərbaycan qurumlarının əməkdaşlığından yazıb**

İtaliya mediası bu ölkənin “Ansaldo Energia” şirkəti ilə “AzərEnerji” ASC arasındakı yeni əməkdaşlıqdan yazıb.

AZƏRTAC xəbər verir ki, “La Repubblica”, “il Sole 24 ore”, “La Stampa”, “il Secolo XIX” kimi saytların yaydığı materiallarda Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində “Ansaldo Energia” ilə “AzərEnerji” arasında anlaşma memorandumunun imzalandığı bildirilir.

Diqqətə çatdırılır ki, sənəd dekarbonizasiya, kadr hazırlığı, karbon tutma, yaşıl hidrogen, kiçik modul reaktorları və başqa istiqamətləri əməkdaşlığı əhatə edir. Hər iki şirkət elektrik enerjisinin istehsal sistemləri, yaşıl hidrogen istehsalına dair təcrübə mübadiləsi aparacaq, yaşıl enerji keçidinə töhfə verəcək.

Qeyd edək ki, daha əvvəl Azərbaycanın Energetika Nazirliyi və “AzərEnerji” ASC ilə “Ansaldo Energia” şirkəti arasında əməkdaşlıq haqqında müqavilələr imzalanıb. “Ansaldo Energia” hazırda Mingəçevirdə Azərbaycanın ən böyük İstilik Elektrik Stansiyasının yenidən qurulmasında iştirak edir.

**Nihad Budaqov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Roma**

**AZƏRTAC**
**2024, 16 noyabr**